## LÜTFİ ZADƏ ADINA TƏQAÜD




Lütfi Zadə adına təqaüd şəhid və qazi övladlarına veriləcək Lütfi Zadə irsi və Süni İntellekt Assosiasiyası ilə AzEdu Academy istedadlı gəncləri daha da həvəsləndirmək üçün birgə layihəyə start verir. Layihə çərçivəsində bakalavriatura səviyyəsində təhsil alan tələbələr təqaüd qazanmaq şansı əldə edəcəklər.

Qeyd edək ki, bir neçə gün öncə ölkə başçısı məşhur həmyerlimiz, dünya elminin fəaliyyət istiqamətini dəyişən professor Lütfi Zadənin 100 illik yubileyi ilə bağlı sərəncam imzalayıb. Layihənin təşkilat komitəsi bir müddət öncə qələbəmiz, torpaq-larımızın azad olunması ilə başa çatan Vətən Müharibəsində, eləcə də I Qarabağ Müharibəsində şəhid və qazi olan şəxslərin tələbə övladlarına adlı təqaüdün verilməsinin məntiqəuyğun olduğunu düşünür.

Bu məqsədlə də yalnız aşağıdakı şərtlərə cavab verən tələbələr Lütfi Zadə təqaüdünə layiq görüləcəklər:

Təqaüdün miqdarı 100 AZN, müddəti isə 1 ildir.

### ADA Universitetində Lütfi Zadə adına təqaüd

ADA Universitetində keçirilən “Akade-mik Mükəmməllik Günü”ndə yeni təqaüd təsis edildi. Universitetin İnformasiya Texno-logiyaları və Mühəndislik İnstitutundakı ixti-saslar üzrə təhsil alan əlaçı tələbələr bundan sonra Lütfi Zadə adına təqaüd qazana biləcəklər. Bu təqaüd ADA Universitetinin rektoru Hafiz Paşayevin təşəbbüsü ilə təsis olunub.




### Pedaqoji Universitetdə Lütfi Zadə adına təqaüd




Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) informatika müəllimliyi ixtisasının tələbələri üçün “Lütfi Zadə adına təqaüd” təsis olunub.Bununla da ADPU-dakı adlı təqaüd-lərin sayı 14-ə çatıb.